Azərbaycan Respublikasının Milli Bankı,
Azərbaycan Respublikasının Vergilər Nazirliyi və
banklar arasında elektron sənəd mübadiləsi haqqında

# KOLLEKTİV SAZİŞ

BAKI - 2008

## 1. Ümumi müddəalar

1.1.Bu Saziş (bundan sonra birlikdə Tərəflər adlanacaq) Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Milli Bankı və Azərbaycan Respublikasında fəaliyyət göstərən Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sisteminin (bundan sonra - XÖHKS) üzvü olan Banklar (bundan sonra - Bank) arasında bağlanılır.
1.2. Bu Sazişin icrası zamanı Tərəflər arasında münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tənzimlənir.
1.3. Bu Sazişi imzalamış Bank ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi arasında şəhadətnamə-dublikat və sərəncamların dövriyyəsi Azərbaycan Respublikası Milli Bankının XÖHKS-i üzərindən aparılır.
1.4. Elektron məlumat mübadiləsi zamanı texniki problem yarandıqda Bank ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyi arasında şəhadətnamə-dublikat və sərəncamlar, habelə onların icrası ilə bağlı məlumatların mübadiləsi müvafiq qanunvericiliyə əsasən kağız daşıyıcılardan istifadə edilməklə aparıla bilər.

## 2. Elektron mübadilənin təşkili

2.1. Bu Sazişin şərtləri daxilində mübadilə olunan sənəd və məlumatlar aşağıdakılardır:
2.1.1.Vergi orqanları tərəfindən Banka göndərilən bank hesabının açılması üçün şəhadətnamə-dublikat;
2.1.2.Vəsaitin dövlət büdcəsinə alınması üçün vergi orqanları tərəfindən Banka təqdim olunan sərəncam;
2.1.3.Vəsaitin dövlət büdcəsinə alınması üçün Bankda olan hesaba qoyulmuş sərəncamın geri çağırılması haqqında vergi orqanının məktubu;
2.1.4.Bank tərəfindən şəhadətnamə-dublikat əsasında açılmış hesabın rekvizitləri barədə vergi orqanlarına göndərilən bildiriş;
2.1.5.Bank tərəfindən şəhadətnamə-dublikat əsasında açılmış hesabın bağlanması və ya rekvizitlərinin dəyişdirilməsi barədə vergi orqanlarına göndərilən məlumat;
2.1.6.Alınmış məlumatlardakı səhvlər barədə protokol.
2.2. Bu Sazişin 2.1-ci bəndində göstərilən sənəd və məlumatların strukturu və formatı MT-999 formatına uyğun olmalıdır. Bu sənədlərin strukturunda və formatında olan dəyişikliklər və əlavələr barədə məlumat Vergilər Nazirliyi tərəfindən Banka göndərilir. Bu zaman aparılan dəyişikliklər və əlavələr XÖHKS tərəfindən qoyulan tələblərə və məhdudiyyətlərə uyğun olmalıdır.
2.3. Bu Sazişin məqsədləri üçün vergi orqanları tərəfindən şəhadətnamə-dublikat və ya sərəncamın təqdim edildiyi gün onlar barədə məlumatın XÖHKS-ə ötürüldüyü gün qəbul edilir. Eynilə, bank hesabının açılması, bağlanması və nömrəsinin dəyişdirilməsi və sərəncamın icrası ilə bağlı məlumatların Bank tərəfindən XÖHKS-ə ötürüldüyü gün əməliyyatın aparıldığı və ya hərəkətin baş verdiyi gün qəbul edilir.
2.4. Vergi orqanları ilə Bank arasında qarşılıqlı elektron məlumat mübadiləsi vergi orqanları tərəfindən verilmiş şəhadətnamə-dublikatlar və sərəncamlar barədə məlumatların XÖHKS-ə və Bank tərəfindən açılmış, bağlanmış və hesab nömrəsi dəyişdirilmiş bank hesabları və sərəncamların icrası və səhvlər barədə məlumatların Vergilər Nazirliyi tərəfindən hazırlanmış xüsusi proqram təminatı olan "TaxBank" proqram kompleksində emal edilərək XÖHKS-ə ötürülməsi vasitəsi ilə aparılır. Məlumat mübadiləsi gün ərzində XÖHKS-in iş rejiminə uyğun həyata keçirilir.
2.5."TaxBank" proqram kompleksi Vergilər Nazirliyinın Avtomatlaşdırılmış Vergi İnformasıya Sistemi (AVİS) və XÖHKS tərəfindən qoyulan parametr-texniki tələblərə uyğun olmalı, Bankın bütün aidiyyəti strukturları (baş bank idarəsi, filialları və şöbələri) tərəfindən istifadəyə yararlı olmalıdır.
2.6. Bankın XÖHKS-lə birbaşa əlaqəsi olmayan filialları (şöbələri) məlumatları baş bank vasitəsilə XÖHKS-ə ötürürlər.

## 3. Tərəflərin öhdəlikləri

3.1. Azərbaycan Respublikasının Milli Bankı:
3.1.1.Bu Saziş əsasında vergi orqanları ilə Bank arasında elektron sənəd və məlumat mübadiləsinin XÖHKS üzərindən aparılmasına maneəsiz şəraitin yaradılmasını təmin edir;
3.1.2. XÖHKS-nin fəaliyyətində gözlənilməyən fasilələr olarsa tərəflərə bu haqqda məlumat verir.
3.2.Azərbaycan Respublikasının Vergilər Nazirliyi:
3.2.1. "TaxBank" proqram kompleksini www.e-taxes.gov.az saytının müvafiq bölməsində yerləşdirir və onun aktual saxlanmasını təmin edir;
3.2.2.bank hesabının açılması barədə bildiriş, hesabın bağlanması və ya rekvizitlərinin dəyişdirilməsi barədə məlumat, səhvlər barədə protokol daxil olduqdan sonra:
3.2.2.1.alınmış faylların qeydiyyatının aparılmasını təmin edir;
3.2.2.2.daxil olan məlumatların doğruluğunu yoxlayaraq faylların format-məntiqi yoxlamadan (FMY) keçirilməsini təmin edir;
3.2.2.3.FMY nəticəsində səhv aşkar olunduqda səhvlər barədə protokolun tərtib olunmasını təmin edir;
3.2.2.4.FMY nəticəsində səhv aşkar olunmadıqda faylın emalının davam etdirilməsini və məlumat bazasına işlənilməsini təmin edir.
3.3. Bank:
3.3.1. hesabın açılması üçün şəhadətnamə-dublikat, vəsaitin dövlət büdcəsinə alınması üzrə sərəncam, sərəncamın geri çağırılması haqqında vergi orqanının məktubu və səhvlər barədə protokol daxil olduqdan sonra:
3.3.1.1.alınmış faylları "TaxBank" proqram təminatı vasitəsilə FMY nəzarətindən keçirir, filialların birbaşa XÖHKS-lə əlaqəsi olmadıqda baş bank, filial və şöbələr üzrə ayrı-ayrı qovluqlarda yerləşdirir və Bankın korporativ şəbəkəsi vasitəsi ilə həmin gün məlumatı onlara ötürür;
3.3.1.2. FMY nəticəsində səhv aşkar olunduqda səhvlər barədə protokolun tərtib olunmasını təmin edir;
3.3.1.3. açılmış, bağlanmış və ya rekviziti dəyişmiş hesablar barədə məlumatın, səhvlər barədə protokolların "TaxBank" proqram təminatı vasitəsilə XÖHKS-ə ötürülməsini təmin edir;
3.3.1.4. filiallarının (şöbələrinin) birbaşa XÖHKS-lə əlaqəsi olmadıqda, onlara aid məlumatın "TaxBank" proqram təminatı vasitəsilə XÖHKS-ə ötürülməsini təmin edir.
3.4. Sərəncam, həmçinin sərəncamın geri çağırılması barədə məktubun icraya qəbulu tarixi aşağıdakı kimi müəyyən edilir:
3.4.1. Sərəncam, həmçinin sərəncamın geri çağırılması barədə məktub - günün 1-ci yarısı daxil olmuşdursa, XÖHKS-də əməliyyatın aparıldığı tarix;
3.4.2. Sərəncam, həmçinin sərəncamın geri çağırılması barədə məktub - günün 2-ci yarısı daxil olmuşdursa, XÖHKS- də əməliyyatın aparıldığı tarix və ya növbəti əməliyyat günü;
3.5. Bank tərəfindən qəbul edilmiş sənədlərin cavablandırılması aşağıdakı müddətlərdə həyata keçirilir:
3.5.1. Sərəncam, həmçinin sərəncamın geri çağırılması barədə məktub icra edilmədikdə, səbəbi göstərilməklə-həmin əməliyyat günü və ya növbəti əməliyyat günündən gec olmayaraq;
3.5.2. Şəhadətnamə-dublikat üzrə hesabın açılması- hesab açıldıqdan sonra həmin əməliyyat günü və ya növbəti əməliyyat günündən gec olmayaraq;
3.5.3. Şəhadətnamə-dublikat üzrə hesab açılmadıqda – ya hesabın açılmaması barədə qərarın qəbul edildiyi, ya da şəhadətnamə-dublikatın etibarlılıq müddəti başa çatdığı tarixdən sonrakı növbəti əməliyyat günündən gec olmayaraq.

## 4. Sazişin müddəti

4.1. Bu Saziş Tərəflər arasında imzalandığı andan qüvvəyə minir.
4.2. İştirakçı Bank 30 (otuz) gün əvvəl Azərbaycan Respublikası Vergilər Nazirliyinə və

Azərbaycan Respublikası Milli Bankına səbəbləri göstərilməklə yazılı xəbər verərək elektron sənəd mübadiləsindən birtərəfli qaydada imtina edərək bu Sazişdən çıxa bilər.
4.3. Bu Sazişin icrası ilə bağlı Tərəflərin birinin digərinə hər hansı haqq ödəməsi nəzərdə tutulmur.

## 5. Sazişə qoşulma qaydaları

5.1. Bu Saziş XÖHKS sisteminin üzvü olan bütün banklar üçün açıqdır.
5.2. Sazişə yeni qoşulacaq hər bir iştirakçı Bank tərəfindən ayrıca qoşulma protokolu (Əlavə №1) 3 (üç) əsl nüsxədə imzalanır və bir nüsxə Azərbaycan Respublikasının Vergilər Nazirliyində, bir nüsxə Azərbaycan Respublikası Milli Bankında, digəri isə iştirakçı Bankda qalır.
5.3. Qoşulma protokolunun imzalanması bu Sazişə uyğun fəaliyyət göstərmək barədə yazılı iltizam sayılır.

## 6. Yekun müddəalar

6.1. Bu Sazişin icrası ilə bağlı Tərəflərin məsuliyyəti Azərbaycan Respublikası qanunvericiliyinə əsasən müəyyən edilir.
6.2. Bu Sazişin icrası zamanı meydana çıxan mübahisələr və ixtilaflar Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Milli Bankı və digər iştirakçı Bankların arasında danışıqlar yolu ilə həll edilir. Danışıqlar nəticəsində həlli mümkün olmayan mübahisələrə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə məhkəmə qaydasında baxılır.
6.3. Bu Sazişin şərtlərinin dəyişdirilməsinə və ya ona əlavələr edilməsinə Tərəflərin razılığı ilə yol verilir. Sazişə edilən bütün əlavə və dəyişikliklər yazılı qaydada aparılır.
6.4. Bu Saziş iki əsl nüsxədə bağlanılır və biri Azərbaycan Respublikasının Vergilər Nazirliyində, digəri isə Azərbaycan Respublikasının Milli Bankında saxlanılır. Sazişin surətləri hər bir iştirakçı Banka təqdim edilir.

| | |
|---|---|
| Azərbaycan Respublikasının<br>Milli Bankının İdarə Heyəti<br>sədrinin 1-ci müavini | Azərbaycan Respublikasının<br>vergilər nazirinin müavini<br>3-cü dərəcəli dövlət vergi<br>xidməti müşaviri |
| __________ Alim Quliyev | __________ Natiq Əmirov |
| "31" mart 2008-ci il | "18" mart 2008-ci il |
| № 11/01-171 | № 081702000181600 |

Əlavə № 1

Azərbaycan Respublikasının Milli Bankı, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Banklar arasında elektron sənəd mübadiləsi haqqında

Kollektiv Sazişə

# Qoşulma protokolu

_______________________________________ tərəfindən hazırki protokolun imzalanması
(qoşulan bankın adı)

Milli Bank, Vergilər Nazirliyi və digər iştirakçı banklarla birgə imzalanmış ___ ______ 2008-ci il tarixli "Azərbaycan Respublikasının Milli Bankı, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Banklar arasında elektron sənəd mübadiləsi haqqında Kollektiv Sazişə"ə uyğun fəaliyyət göstərmək barədə yazılı iltizam sayılır.

| **№** | **Bankın adı** | **İmza Möhür** | **Səlahiyyətli şəxsin Adı, soyadı və vəzifəsi** | **Tarix** |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| | | | | |